TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
_____________ E.M.Ağayev
18 sentyabr 2024-cü il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**YEMİŞAN TİNKTURASI**
TINCTURA CRATAEGI

**Tərkibi**
*Təsiredici maddə:* 1 flakonda 25 ml yemişan meyvələrinin (*Crataegi fructus*) (1:10) (ekstragent 70%-li etanol) tinkturası vardır.
*Köməkçi maddələr:* ekstragentdən başqa maddə yoxdur.

**Təsviri**
Qırmızımtıl-qəhvəyi rəngli mayedir. Saxlanma prosesində çöküntünün yaranması mümkündür.

**Farmakoterapevtik qrupu**
Kardiologiyada istifadə edilən vasitələr.
**ATC kodu:** C01EB04.

**Farmakoloji xüsusiyyətləri**
***Farmakodinamikası***
Yemişan meyvələrinin tərkibində olan bioloji aktiv maddələr (flavonoidlər, xolin, asetilxolin, aşı maddələri, fitosterinlər, triterpen turşuları) koronar damarlarda və baş beyin damarlarında qan dövranını gücləndirir, miokardın ürək qlikozidlərinə qarşı həssaslığını artırır və onun oyanıqlığını azaldır ki, bu da, ürək əzələsinin yığılmasının güclənməsinə səbəb olur.
***Farmakokinetikası***
Preparat daxilə qəbul zamanı yaxşı sorulur. Effekt 30 dəqiqə -1 saatdan sonra baş verir.

**İstifadəsinə göstərişlər**
Ürək-damar sisteminin fəaliyyətinin funksional pozulmaları (neyrosikrulyator distoniya), eləcə də ürək ritminin pozulmasının (səyrici aritmiya, paroksizmal taxikardiya) yüngül formalarında köməkçi dərman vasitəsi qismində istifadə edilir.

**Əks göstərişlər**
Preparatın istənilən komponentinə qarşı yüksək həssaslıq. Təzahürlü arterial hipotenziya və bradikardiya.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Qida komponentlərilə qarşılıqlı təsirin qarşısını almaq məqsədilə, preparatı yemək zamanı qəbul etmək məsləhət görülmür.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Preparat, ürək qlikozidlərinin, yuxugətiricilərin, sedativlərin, hipotenziv vasitələrin təsirini gücləndirə bilər. Mənfi komplekslərin yaranması ilə əlaqədar olaraq, alkaloid duzları ilə eyni vaxtda istifadəsi məsləhət görülmür. Preparatı sizaprid ilə eyni vaxtda istifadə etmək olmaz.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Preparatın tərkibində etanol olduğu üçün tinkturanı hamilə qadınlarda və laktasiya dövründə istifadə etmək məsləhət görülmür.

**Pediatriyada istifadəsi**
Preparatın tərkibində etanol olduğu üçün 12 yaşa qədər uşaqlarda istifadə etmək məsləhət görülmür.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarə etməkdən çəkinmək lazımdır.

**İstifadə qaydası və dozası**
Yeməkdən əvvəl daxilə qəbul edilir.
Tinktura böyüklərə 20 damcı, 12 yaşdan yuxarı uşaqlara hər yaşa 1 damcı hesabı ilə gündə 3 dəfə stabil müalicəvi effekt alınana qədər qəbul etmək məsləhət görülür (arterial təzyiqin normallaşması, ürəkdöyünmənin azalması).

**Əlavə təsirləri**
Nadir hallarda yuxululuq, ürək təzyiqinin əhəmiyyətli dərəcədə ləngiməsi, allergik reaksiyalar (o cümlədən hiperemiya, səpgi, qaşınma, dərinin ödemi) müşahidə edilir.
*Əlavə təsirlər barədə məlumatın verilməsi*
Pasiyentdə hər hansı və ya bu içlik vərəqədə qeyd edilməyən əlavə təsir yarandıqda, bu barədə həkimə və ya əczaçıya məlumat vermək lazımdır.
Dərman vasitələrinin istifadəsi zamanı yaranan əlavə təsirlər haqqında məlumatlar Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin Farmakonəzarət şöbəsinə verilməlidir.
Ünvan: AZ1065, Azərbaycan Respublikası; Bakı ş., Cəfər Cabbarlı k., 34.
Faks: (99412) 596-07-16.
Tel.: (99412) 596-05-20.
Qaynar xətt: (99412) 596-07-12.
e-mail: adr@pharma.az; Website: www.pharma.az
Əlavə təsirlər barədə məlumatın verilməsi, preparatın təhlükəsizliyi barədə məlumatın toplanmasına kömək edir.

**Doza həddinin aşılması**
Doza həddinin əhəmiyyətli dərəcədə pozulması zamanı yuxululuğun, bradikardiyanın, arterial təzyiqin enməsinin yaranması mümkündür ki, bu da preparatın qəbulunun dayandırılmasını və simptomatik terapiyanın aparılmasını tələb edir.

**Buraxılış forması**
25 ml məhlul damcıladıcısı olan flakonda.

**Saxlanma şəraiti**
25°C-dən yüksək olmayan temperaturda, işıqdan qorunan və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
2 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı/Qeydiyyat vəsiqəsinin sahibi**
Ternopharm LTD, Ukraine.
4 Fabrychna street, Ternopil, Ukraine.
Tel.:/Faks: (0352) 521-444.
www.ternopharm.com.ua